**UOT 94(479.24)**

**AYSEL SADIQOVA**
*AMEA Tarix və Etnologiya İnstitutu*
**aysel.sadgova@inbox.ru**

# QARABAĞIN ÇİLƏBÖRD MƏLİKLİYİ

DOI: https://doi.org/10.36719/2708-065X/106/147-151

*Məqalədə XVIII-XIX əsrlərdə Qarabağ xanlığının tərkib hissəsi olan Xəmsə məlikliklərindən biri – Çiləbörd məlikliyinin yaranışı və fəaliyyəti araşdırılır. Konkret faktlar əsasında bu məlikliyin hansı hüdudları əhatə etməsi, məliklərin etnik mənsubiyyəti, digər məliklərdən fərqli olaraq sultan tituluna da nəyə görə layiq görülmələri, Çiləbördün məlikliyə qədər Xaçın mahalı tabeliyində nahiyə olması, bu nahiyənin toponimikası, Çiləbörddə məlikliyin təsis olunmasından sonra Qarabağ xanlığına qarşı separatçılıq meylləri kimi məsələlər öyrənilir.*

*Açar sözlər:* Qarabağ, Xəmsə məlikləri, Çiləbörd, alban, xristian, Məlik Yesai.

***Giriş.*** Azərbaycan Səfəvi hökmdarları dövründə Qarabağ vilayətinin Dizaq, Vərəndə, Xaçından, Çiləbörddən, Talışdan ibarət olan Xəmsə mahalları və elləri mövcud olmuş və bu mahallar Nadir şah Əfşar imperiyasının qurulmasına qədər Gəncə bəylərbəyinin hökmünə tabe olmuşdur. Lakin Nadir şah Əfşarın hakimiyyəti dövründə məliklərə birbaşa şaha tabe olmaq tapşırılmışdı. Buna görə də Gəncə xanlarının səlahiyyətləri əllərindən alınmış və onlar tədricən zəifləmişdilər. Məliklərin hakimiyyəti irsi idi: atanın ölümündən sonra idarəçilik və “məlik” titulu böyük oğula keçirdi, digər qardaşlar isə “bəy” adlanırdı. Məlikliklərin idarəçiliyində qanunun əvəzinə hakimin iradəsi və xalq adətləri mühüm rol oynayırdı. Məliklər bir-biri ilə istər siyasi maraqlar baxımdan, istərsə də qohumluq əlaqələrinə görə bağlı idi. Qarabağın Xəmsə məliklərindən biri də Çiləbörd məlikliyi idi. Bu məlikliyin tarixi də digər məlikliklərimiz kimi ayrıca tədqiq olunmamış və əsasən Qarabağın xanlıqlar dövrünü tədqiq edən Yaqub Mahmudov, Kərim Şükürov, Tofiq Mustafazadə, Güntəkin Nəcəfli, Zemfira Hacıyeva [5; 9-11] və başqa tarixçilərimizin əsərində bu məlikliyin tarixinə də müəyyən məlumatlar verilmişdir. XIX əsr rus tarixçilərinin tərtib etdiyi müxtəlif toplular – Qafqaz Arxeoqrafiya komissiyasının Aktlarında, Rusiyanın Qafqaz arxası mülklərinin statistik, etnoqrafik, topoqrafik və maliyyə icmalı, çar zabitlərinin sifarişi ilə tərtib edilmiş “Qarabağnamələr” isə problemin mənbə bazasını təşkil edir. Bu məlikliklə bağlı erməni tarixşünaslığında son illərdə yazılmış ən geniş məlumat isə Artek Mahalyanın birbaşa məliklərin tarixinə həsr edilmiş əsəridir. Problemin arxeoloji və toponim tərəflərinin tədqiqi üçün Rəşid Göyüşovun tədqiqat əsəri və Azərbaycan toponimlərinin ensiklopedik lüğətinə də yeri gəldikcə müraciət edilmişdir. Ümumiyyətlə, tədqiqatın gedişində əsas diqqət məlikliyin ərazisinin hansı əraziləri əhatə etməsinə, əsas yaradıcılıarının kimliyi, onların etnik mənsubiyyəti, onların Qarabağ xanlığı ilə münasibətləri kimi məsələlərin öyrənilməsinə yönəldilmişdir.

***Əsas hissə.*** Mirzə Yusif Qarabaği yazır ki, bu məlikliyin sərhədlərini Qırxqızdan Bərdə və Bayat meşəsinin kənarına qədər, Xaçın və Qabartı çayından da Tərtər çayına qədər uzanırdı [7, s.14]. Bu məlikliyin ərazisinin əsas hissəsi keçmiş Ağdərə rayonu ərazisinə və qismən də Kəlbəcərin şərq hissəsinə düşürdü [16, s.31]. Çiləbörd məliklərinin qərar tutduqları mahalın ərazisinə Məğavizdən köç ediblər [11, s.77]. Qeyd edək ki, Məğaviz, yaxud Mağavuz Qarabağ əyalətinin bir bölgəsi idi. 1747-ci ildən sonra Qaraçorlu mahalının, 1840-cı ildən sonra Şuşa qəzasının Zəngəzur sahəsinin, 1867-ci ildə Zəngəzur qəzasının, 1930-cu ildən sonra Laçın rayonunun tərkibində olub [6, s.72]. Eyni adlı toponim Xocavənd rayonu ərazisində də mövcuddur. Tədqiqatçılar bu coğrafi adı mənası aydın olmayan adlar sırasına aid edir [2, s.70]. Mirzə Yusif Qarabaği məlikliyin əhalisinin cəsur və qəhrəmanlıqda məşhur olduğunu yazır. Buna örnək olaraq Çiləbördün həmin məliklərindən biri Məlik Allahqulu barədə o yazırdı ki, Nadir şah Əfşarın xidmətində olub Abdulla paşa Köprülü oğlu ilə döyüşdə qəhrəmanlıq göstərdiyinə görə Nadir şahın əmri ilə məlik deyil, sultan titulu ilə təltif edilmişdir [7, s.14; 10, 108-109]. Bu məliklik də Nadir şahın hakimiyyətinə qədər Gəncə bəylərbəyinin hökmünə tabe olmuşdur. Mahalyan bu məlikliyin Məlik İsrailin nəslindən olanlar tərəfindən idarə olun-

duğunu, iqamətgahlarının Köhnə Moxrataxda [Möhrətağda – red.], Mayrakaxak qalasında [Kaxakatex də adlanırdı] yerləşdiyini qeyd edir. Çiləbörd məlikliyi ilə bağlı Mahalyanın qeyd etdiyi bu məntəqələrin adları erməni dilində təhrif edilmiş toponimlərdəndir. Qeyd edək ki, Köhnə Möhrətağ adlanan ərazi Kiçik Qarabəy kəndinin ermənicə təhrif edilmiş adıdır. XIX əsrdə Çar Rusiyasının Qacarlar İranından tarixi Azərbaycan torpaqlarına köçürdüyü erməni ailələri Kiçik Qarabəy kəndində məskunlaşdırıldıqdan sonra kəndi Möhrətağ [palçıqdan tikilən barılı məhəllə] adlandırmışdılar [1, s.280]. 1992-ci ildə kəndin keçmiş adı bərpa edildi. Mayrakaxak adlanan qala isə Kəlbəcər rayonu ərazisində Qozlu kəndinin ərazisində yerləşirdi.

Çiləbörddə məlikliyin əsasını qoymuş Məlik-İsrailin adı ilə onun xələfləri Məlik-İsraililər adlandırılırdı. Onun 4 oğlu var idi: Məlik Yesai, Allahqulu, Məlik Adəm, Usub bəy və adı məlum olmayan bir qızı [16, s.101]. Mahalyan Yesai Həsən Cəlalın “Alban ölkəsinin tarixi” kitabınının Matenadaranda qorunub saxlanılan əlyazmasına istinadən Çiləbörd məlikliyinin 1687-ci ildə əsasının qoyulduğunu qeyd edir [16, s.101]. Maraqlıdır ki, həmin əsərin rusca və dilimizə tərcümə edilmiş versiyalarında bu barədə məlumat yoxdur. Mahalyan bu əsərə yenidən istinad edərək yazır ki, Məlik İsrailin oğlu olan Məlik Yesai 1687-ci ildə Sisakan nəslindən olub bacısının namusunu müdafiə edərkən Sünikin xanlar xanını öldürüb öz nəsli ilə Ərsakda məskunlaşdı [16, s.102]. Məskunlaşdığı ərazi, yəni Çiləbörd mahalının böyük bir hissəsi meşəlik və keçilməz yerlərdən ibarət idi. Çarmıx adlı məşhur bir qalası var idi. Olduqca möhkəm olan bu qala ilə bağlı Rəşid Göyüşov “Qarabağın keçmişinə səyahət” əsərində geniş məlumat vermişdir. Həmin əsərdən alınan məlumatlara görə Bərdə şəhərinin təxminən 50-60 km-də, Tərtər çayının dərəsində tikilmişdir. Xarabalığı Ağdərə rayonunun Çardaxlı kəndinin yaxınlığındadır. Bu qalanın adı haqqında bir neçə rəvayət vardı. Bu rəvayətlərə istinadən Rəşid Göyüşov yazır: *“Bəziləri bu sözün erməni dilində Sərtqala, bəziləri onun Crabert, yəni su ilə əhatə olunmuş qala, daha başqaları isə onun Carabert, yəni Carçəkilən yer mənası daşıdığını söyləyirlər. Lakin bizi onun adının mənşəyi ilə yanaşı, bu qalanın qədim Qarabağ tarixində, daha doğrusu Ümumazərbaycan tarixində oynadığı rol maraqlandırır”* [4, s.54-56]. Qeyd edək ki, bu qala Torağay çayının Tərtər çayına birləşdiyi ərazidə çayın səthindən təqribən 1500 metr yüksəklikdə yerləşən sıldırım qayalıqdan üzərində tikimişdir. Üç tərəfi su ilə, bir tərəfi isə sıldırımlı dağ yamacı ilə əhatə olunan bu qalaya gedən iki yoldan biri əsrlər boyu yağış suları və digər təbii hadisələr səbəbindən tamamilə dağılmış, ancaq onun izi dövrümüzədək qalmışdır. Rəşid Göyüşov ikinci yolla bağlı belə yazır: *“Qalaya gedən ikinci yol isə yeraltı olmuşdur. Yeraltı yolun gizli qalmasını təmin etmək məqsədilə, onu Tərtər sularının daşla döydüyü bir sal qayadan başlamışlar. Sakinlər qayanın içərisini ovaraq düz qalanın cübbəxanasına [qalanın lap zirvəsində, yeraltı bir otaqdan ibarətdir] qədər böyük bir tunel qazmışdılar.”* [4, s.54-56]. Bu yol 1963-cü ildə Azərbaycan arxeoloqları tərəfindən araşdırılmış yolun bütün sirrlərini tədqiq etmişdir. Bu barədə Rəşid Göyüşov geniş məlumat vermişdir. Bu məlumatlardan diqqəti çəkən ən mühüm məqam qalanın strateji əhəmiyyəti, təhlükəsizliyin təmin edilməsi üçün hər cür tədbirlərin görülməsidir. Sıldırım qayalar üzərində ikiqat qala divarlar çəkilmiş, qala demək olar ki, hər 10-12 metrdən bir yarımdairəvi bürclər hesabına daha da möhkəmləndirilmişdir. İstər bürclər, istərsə də ara divarların çöl hissəsində müdafiə məqsədli xüsusi mazğallar inşa edilmişdir [4, s.54-56]. Qalanın adı Qarabağnamələrdə Çarmıx deyil, Cermux kimi xatırlanır. İkinci toponim çox güman ki qalanın adının məliklərin qriqoryanlaşması ilə əlaqədar təhrif edilmiş formasıdır.

Çiləbörd məlikliyinin tarixinə nəzər salarkən 1595-ci ildə Osmanlılar tərəfindən Gəncə-Qarabağ əyaləti üçün tərtib edilmiş müfəssəl dəftərdəki məlumatlara da diqqət yetirmək vacibdir. Bu dəftərdə Xaçın sancağı tərkibindəki 7 nahiyədən ikisi Çiləbördün adını daşıyırdı: Dağlıq Çiləbörd və Çiləbörd. Bu iki Çiləbördün dəqiq hansı əraziləri əhatə etməsini müəyyən etmək mənbə yetərsizliyinə görə çətindir. “Müfəssəl dəftər”ə görə Çiləbörd nahiyəsində əhali dənli bitkilər yetişdirilməsi, maldarlıq, arıçılıq və üzümçülük təsərrüfatı ilə məşğul idi. Çiləbörd nahiyəsində silahqayırma ilə də məşğul olurdular. Nahiyədə silah lüləsi, silah çaxmağı düzəldən 3-4 nəfərlik fəhləsi olan emalatxanalar var idi [10, s.81; 17, s.299-300]. Çiləbördün ən böyük kəndləri Qissabad, Yuxarı və Aşağı Qarabəy kəndləri idi. Bu kəndlərdə müvafiq olaraq 44, 47 və 121 nəfər qeyri-müsəlman kişi yaşayırdı [3, s.363-373]. Bütövlükdə, 1595-ci ilə aid “Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərində Çiləbörd nahiyəsinin kəndlərinin adlarına diqqət etdikdə bu toponimlərin kimə məxsus olması aydın olur: *“Yeniköy [15 qeyri-müsəlman], Qıssaabad [44 qeyri-müsəlman], Mehmanan [38 qeyri-müsəlman],*

*Canyataq [26 qeyri-müsəlman], Naxçıvanik [28 qeyri-müsəlman], Dərabdul [13 qeyri-müsəlman], Mirikənd [20 qeyri-müsəlman], Gülablı [11 nəfər], İskənə [kənddə yaşayış yoxdur], Yuxarı Qarabəy [48 qeyri-müsəlman], Aşağı Qarabəy [121 qeyri-müsəlman], Carmətaq [13 qeyri-müsəlman], Uxnakerk [8 qeyri-müsəlman], Yenicə [23 qeyri-müsəlman], Dəstəgird [9 qeyri-müsəlman], Xur [18 qeyri-müsəlman], Köybinə [7 qeyri-müsəlman], Medağiz [18 qeyri-müsəlman], Əmirvan [Məkkəyolu Burunduz] [9 qeyri-müsəlman], Qazanlıq [İncədərə] [14 qeyri-müsəlman], Xanrəis [36 qeyri-müsəlman], Ağxana [31 qeyri-müsəlman], Yuxarı Gölyataq [13 qeyri-müsəlman], Aşağı Gölyataq [12 qeyri-müsəlman]"* [3, s.363-373]. Mahal üzrə vergi ödəyən əhali sayı 575 nəfər idi. 1823-cü ilə aid Qarabağ əyalətinin təsvirində də yerli toponimika izlənilmişdir. Həmin təsvirə görə Çiləbörd mahalında 201 ailənin qeydə alındığı Qıssaabad [88 ailə], Malyataq [14 ailə], Kiçik Qarabəy [13 ailə], Ulu Qarabəy [11 ailə], Maqavuz [14 ailə], Həsənriz [20 ailə], Yengicə [5 ailə], Naxçıvanik [36 ailə] [18, s.242] kəndlərinin adı təsvirə daxil edilmişdir [5, s.188-189]. XIX əsrdə isə Çiləbörd mahalında 8 kənddə 201 [127-si vergi ödəyən, 74-ü vergidən azad] ailə var idi [12, s.858]. Mahalın əhalisinin əsas məşğuliyyəti əkinçilik, qismən maldarlıq, bağçılıq, sənətkarlıq, o cümlədən silah-qayırma idi. Mahalda əhalisi yalnız xristianlar ibarət idi. Bu mahaldan xəzinəyə hər il 2205 manat [1822-ci ildə isə bu rəqəm 1269 manata qədər azalmışdır] və 185 əşrəfi vəsait daxil olurdu. Mahalın kəndlərinin əksəriyyətinin idarəsi Məlik Oqanesin, Naxçivanik adlı kənd isə Əsri bəyin əlində idi [5, s.188-189].

Çiləbörd hakimi Məlik Yesai 1728-ci ildə vəfatından sonra onun varisi qardaşı Allahqulu oldu. Qarabağnamələrdə Məlik Allahqulu barədə məlumatlara yer verilsə də, onun qardaşı Məlik Yesai ümumiyyətlə xatırlanmır. Məsələn, Mirzə Adıgözəl bəy "Qarabağnamə"də Allahqulu barədə yazırdı ki, Pənahəli xanın hakimiyyəti illərində Ağoğlanda qərar tutmuş bu Çiləbörd məliki qəbul edərkən bu görüşdə iştirak edən Naxçıvan xanı Heydərqulu xanın məsləhəti üzərinə onu öldürtmüş və yerinə qardaşı Məlik Hətəmi məlikliyin başına gətirmişdir. Mənbədə bu qətlə səbəb kimi Allahqulu sultanın cah-cəlal sahibi olması qeyd edilirdi [8, s.38]. Mənbədən də məlum olduğu kimi, Osmanlılara əleyhinə Nadir şah hərbi əməliyyatlar aparan vaxtı igidliyinə görə fərqlənib Sultan rütbəsinə layiq görülmüş Allahqulu Sultan əvvəlcə xanın təbəəliyini qəbul etmişdi [8, s.37]. Amma iki il sonra, yəni 1749-cu ilin sentyabrında Pənah xanın göstərişinə əsasən Qarabağ xanlığına xəyanətdə ittiham edilib öldürüldü [16, s.103]. Allahqulu sultanın ölümündən sonra onun xələfi Məlik Adəm oldu. Məlik Adəm uşaqlıqdan Dağıstanda Xosrov Sultanın yanında əsirlikdə olmuşdur. Onu Nadir şah azad etmişdir [15, s.216]. Məlik Adəmin müasiri olmuş hindli erməni "Yeni dəftərlər" adlı mənbədə Çiləbördün bu məlikini müdrik, yaxşı yetişdirilmiş və döyüş zamanı cəsur biri kimi təqdim edir [13, s.102]. Qeyd edək ki, Məlik Adəm uzun müddət – təxminən 20 ilə yaxın Qarabağ xanlığına qarşı separatçılıq meyllərini alovlandıran məliklərdən biri olmuş və 1783-cü il, iyun ayının əvvəllərində vəfat etmişdir [16, s.104]. Onun həyat yoldaşı Gəncəsər katolikosu Ovannes Həsən Cəlalın bacısı Qəmər Sultan idi [16, s.109]. Məlik Adəmin xələfi oğlu Məlik Məclum oldu, digər oğlu İsrail isə 1776-cı ildə ölmüşdür. Məlik Məclum da Qarabağ xanlığına qarşı hər cür mərkəzdənqaçma meyllərinin içərisində olmuş və bu istiqamətdə əlindən gələni etmişdir [14].

Çiləbörddə Məlik İsrail övladları yanaşı öz mənşəyinin Xaçının məşhur hakimi Həsən Cəlaldan gəldiyini bəyan edən Atabəylər ailəsi də var idi. Maraqlıdır ki, "atabəy" titulu hətta Həsən Cəlal övladları arasında yayğın olan bir ad kimi istifadə edilmişdir. Məsələn, Mahalyan bütün ermənilərin katolikosu adlandırdığı Yefremin 20 dekabr, 1809-cu il tarixli məlumatına istinadən belə yazır: *"Yüzbaşı ləqəbli II Böyük Atabəyin zamanınadək, 1678-ci ilə qədər nəsildən nəsilə hakimlik edənlər adı çəkilən knyaz Cəlalın nəslindən idilər"* [16, s.110]. Burada söhbət Xaçın knyazı Həsən Cəlal Dövlədən gedir. Müqəddəs Eçmiədzin Ali Şurasının üzvləri katolikos Yefremin şahidliyinə istinadən 1821-ci il oktyabr tarixində Aslan Atabəyin müraciətinə müsbət cavab vermiş və onun Həsən Cəlalın nəslindən olduğunu təsdiq etmişdilər [16, s.110]. Yüzbaşı Atabəylə bağlı çox az məlumatlar var. O ölümündən sonra iki oğul övladı qalmışdır: Vani və Quliya. Vaninin nəslindən olanlar Rusiyaya köçüb getmiş, Quliyanın nəslindən olanlar isə Qarabağda qalmışdır [19, s.9].

***Nəticə***. Bütövlükdə, Çiləbörd məlikliyindən olan şəxslərin adlarına diqqət etdikdə aydın olur ki, digər Qarabağ məlikləri kimi onlar da alban-qıpçaq mənşəli olsa da, hər ələ düşən imkanda Qarabağ xanlığında separatçılıq meyllərinə xidmət etmiş, Qarabağ xanlığına düşmən olan bütün qüvvələrlə əməkdaşlıqdan faydalanmağa çalışmışdır. Bu da onların tarixi Azərbaycan torpaqlarında, o

cümlədən də Qarabağda heç bir söz haqqı olmayan ermənilərin mənfur əməllərinə alət olmalarına səbəb olmuşdur. Nəticədə Məlik İsrailin nəslindən olan, aldadılmış və zəiflədilmiş Çiləbörd məlikliyini idarə edən məliklər də XIX əsrin əvvəllərində yavaş-yavaş tarix səhnəsindən silinmişdilər.

ƏDƏBİYYAT


1. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: [2 cilddə] / Red. R.Əliyeva. Tərt.: R.Əliyeva, Q.Məşədiyev, E.İnanc, T.Baxşıyeva, Ş.Qocayeva, İ.Məmmədov, F.Xalıqov. Bakı: Şərq-Qərb, c. 1, 2007, 304 s.
2. Çingizoğlu, Ə., Qubadoğlu, N. Azərbaycan tarixi yurd yerlərinin coğrafiyası / Ə.Çingizoğlu, N.Qubadoğlu. Bakı: Mütərcim, 2015, 176 s.
3. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri / ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov [Qaramanlı]. Bakı: Şuşa, 2000, 576 s.
4. Göyüşov, R. Qarabağın keçmişinə səyahət / R.Göyüşov. Bakı: Azərnəşr, 1993, 83 s.
5. Hacıyeva, Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu / Z.Hacıyeva. Bakı: Təhsil, 2007, 254 s.
6. İsmayılov, F. Laçın: həqiqətlər, mülahizələr, tarixi dəyərlər / F.İsmayılov. Bakı: Nurlar, 2012, 184s.
7. Qarabağnamələr: [2 kitabda]. Tərt. və çapa haz. A.Fərzəliyev; Elmi red. N.Axundov. Bakı: Yazıçı, k.1, 1991, 450 s.
8. Qarabağnamələr: [2 kitabda]. Tərt. və çapa haz. A.Fərzəliyev; Elmi red. N.Axundov. Bakı: Yazıçı, k.2, 1989, 192 s.
9. Mahmudov, Y.M., Şükürov, K.K. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı: təhsil, 2005, 380 s.
10. Mustafazadə, T. Qarabağ xanlığı / T.Mustafazadə. Bakı: Sabah, 2009, 333 s.
11. Nəcəfli, G.C. Qarabağın xristian alban məlikləri // Bakı: İpək yolu. Azərbaycan Universiteti, 2021 Xüsusi buraxılış, s. 74-82.
12. Акты, собранные Кавказской археографической комиссией: [12-х томах]. / Арх. Гл. упр. Наместника кавказ. Под. Ред. Ад. Берже. – Тифлис: Тип. гл. упр. Наместника Кавк., т. 6. ч. 1: [Кавказ и Закавказье за время управления генерала от инфантерии Алексея Петровича Ермолова, 1816-1827], 1874, XIII, 941 с.
13. Балрам, М. Новая книга, называемая увещеванием, Мадрас, 1772–1773 [на арм. яз.]. Пер. и ком. П. Хачатрян / М.Балрам. Ереван: [м.п.], 1991, 210 с.
14. Выписка из полученного чрез конфидента известия из Эривана // ЦГВИА, фонд 52, опис 1/194, документ 286, ч. 1, л. 275, 1783 г. – *surəti:* AMEA TİEA, fond. №1795 /3/.
15. Лалаян, Е., Труды: В 5 т. Т. 2, Отв. ред. Д. С. Вардумян; АН АрмССР, Ин-т археологии и этнографии. Ереван: Изд-во АН СССР, 1988, 505 с.
16. Магалян, А.В. Арцахские меликства и меликские дома в XVII–XIX вв./А.В.Магалян. Ереван: ВМВ-Принт, 2012, 240 с.
17. Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях, произведенное и изданное по Высочайшему соизволению: [в 4-х частях]. Санкт-Петербург: Тип.департамента внешней торговли. Ч.3, 1836, 392, [5] с.
18. Описание Карабахской провинции, составленное в 1823 году по распоряжению главноуправляющего в Грузии действительным статским советником Могилевским и полковником Ермоловым. Тифлис: В типографии управления наместника Кавказского, 1866, 415 с.
19. Потто, В.А. Первые добровольцы Карабаха в эпоху водворения русского владычества [мелик Вании Акоп-юзбаши Атабековы]. Военно-исторический очерк / В.А.Потто. Москва: Интер-Весы, 1993, 56 с.


**АЙСЕЛЬ САДЫГОВА**
*Институт истории и этнологии НАНА*

## МЕЛИКСТВА ЧИЛЯБЕРД КАРАБАХА

В статье рассматривается происхождение и деятельность Чиляберда – одного из меликств Хамсы, входившего в состав Карабахского ханства в XVIII-XIX веках. Каковы были границы этого меликства, его этническая принадлежность, почему им был присвоен титул султана, в от-

личие от других меликств, тот факт, что Чиляберд до меликства был уездом в составе Хачинского магала, изучена топонимика этой территории, сепаратистские тенденции Чилябердского меликства против Карабахского ханства были изучены на основании конкретных фактов.

*Ключевые слова:* Карабах, Меликства Хамсы, Чиляберд, Албан, Христианин, Мелик Есаи.

**AYSEL SADIGOVA**
*Institute of History and Ethnology of ANAS*

## CHILABERD MELIKDOM OF KARABAKH

The article examines the origin and activities of Chilaberd, one of the melikdoms of Khamsa, which was part of the Karabakh Khanate in the 18th and 19th centuries. What were the borders of this melikdom, its ethnicity, why they were given the title of sultan, unlike other melikdoms, the fact that Chilaberd before the melikdom was a district in the Khachin mahal, the toponymy of this territory was studied, and the separatist tendencies of the Chilaberd melikdom against the Karabakh Khanate were studied on the basis of specific facts.

*Keywords:* Karabakh, Khamsa Melikdoms, Chilabord, Alban, Christian, Melik Yesai.

*Məqalənin Redaksiyaya daxil olduğu tarix: 07 iyul 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Rəyçilər: t.e.d. Güntəkin Nəcəfli, t.e.d. Qabil Əliyev.*